AZƏRBAYCAN RESPUBLİKASININ
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
DÖVLƏT DƏNİZ VƏ LİMAN AGENTLİYİ

AZ 1003, Bakı şəhəri, Xanlar küçəsi, 2B
https://www.ddla.gov.az

Tel: (+994 12) 497-44-05 Faks: (+994 12) 497-44-06
E-poçt : info@ddla.gov.az

"30" Aprel 2024-cü il

№ 3-27-106/2-379/2024

**Dəniz nəqliyyatı sahəsində fəaliyyət göstərən şirkətlərə və gəmi sahiblərinə**

Dəniz ətraf mühitinin mühafizəsi ilə bağlı tədbirlərin gücləndirilməsi haqqında

Məlumat üçün bildiririk ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1462 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Dəniz və Liman Agentliyinin Nizamnaməsi"nə uyğun olaraq dəniz ətraf mühitinin mühafizəsi ilə bağlı tədbirlər görmək Agentliyin fəaliyyət istiqaməti kimi təsbit olunmuş, dəniz ətraf mühitinin mühafizəsi ilə bağlı icrası məcburi olan göstərişlər vermək Agentliyin vəzifələrinə aid edilmiş, eləcə də sözügedən Nizamnaməyə əsasən öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin dəniz ətraf mühitinin mühafizəsi ilə əlaqədar gəmilərin limana daxil olmasını və ya limandan çıxmasını qadağan etmək hüququ müəyyən olunmuşdur.

Son dövrlər ekoloji problemlərin qlobal xarakter alması və bu kimi halların dəniz ətraf mühitinə də təsirsiz ötüşməməsi ölkəmizin bu tip məsələlərə daha həssas yanaşmaqla müəyyən qabaqlayıcı tədbirlər görməsinə və nəzarət mexanizminin gücləndirilməsi istiqamətində atılan zəruri addımların genişləndirilməsinə səbəb olmuşdur.

Belə ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) cari ilin noyabr ayında ölkəmizdə keçirilməsi Azərbaycan Respublikasının ekoloji məsələlərə həssas yanaşmasının və ekoloji problemlərin həllini daim prioritet olaraq saxlamasının göstəricisidir.

Qeyd etmək istərdik ki, Xəzər dənizi qapalı su hövzəsi olduğundan dəniz ətraf mühitinin çirklənmədən mühafizəsi, o cümlədən Xəzər dənizinin bioloji ehtiyatlarının qorunması, mühafizəsi, bərpası, davamlı və səmərəli istifadə edilməsi baxımından Xəzəryanı dövlətlərin birgə fəaliyyəti ilə yanaşı, 4 aprel 2006-cı il tarixli 89-IIIQ nömrəli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasından irəli gələn tələb və tapşırıqların icrasına nəzarət aidiyyəti üzrə dövlət qurumları tərəfindən gücləndirilmişdir.

Azərbaycan Respublikasında Xəzər dənizinin sahili boyunca ekoloji vəziyyətin yaxşılaşdırılması üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsinə baxmayaraq, bu sahədə hələ də bəzi problemlər həll edilməmiş qalır.

Bildirmək istərdik ki, Azərbaycan Respublikasının ərazi sularında və sahilətrafı ərazilərdə (liman və körpülər daxil olmaqla) aparılan ekoloji monitorinqlərdə gəmilərdən zibilin atılması, neft və çirkab su tullantılarının gəmilərdən dəniz ətraf mühitinə axıdılması, eləcə də bunker əməliyyatları zamanı bunkerin dənizə dağılması kimi halların baş vermə ehtimalı müntəzəm nəzarətdə saxlanılır və miqyasından asılı olmayaraq qeyd edilən bütün növ çirklənmə halları hövzə üçün acınacaqlı nəticələrə gətirib çıxara bilər.

Ölkəmiz 18 iyun 2004-cü il tarixli 696-IIQ nömrəli Qanun ilə "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya, 1978-ci il tarixli Protokola və 5 mart 2010-cu il tarixli 968-IIIQ nömrəli Qanun ilə "Bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyət haqqında" Beynəlxalq Konvensiyaya qoşulmaqla həmin beynəlxalq konvensiyalardan irəli gələn tələblərin minimum həddini yerinə yetirməklə yanaşı, beynəlxalq təcrübəyə əsaslanaraq yerli tələbləri də müəyyən etmək səlahiyyətinə malikdir.

Belə ki, "Bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyət haqqında" Beynəlxalq Konvensiyanın 7-ci maddəsinin tələbləri ümumi tutumu 1000-dən (min) artıq olan gəmilərə şamil olunduğundan bununla bağlı müvafiq Sertifikat ("Bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyətlə bağlı sığorta və ya digər maliyyə təminatı haqqında Sertifikat") ümumi tutumu 1000-dən (min) çox olan gəmilərə münasibətdə verilir. Lakin bu Beynəlxalq Konvensiya ümumi tutumu 1000 (min) tondan az olan gəmilərə münasibətdə müvafiq Sertifikatın verilməsini istisna etmir. Təcrübələr göstərir ki, bunker yanacağı ilə çirklənmə hallarının baş vermə ehtimalı kiçik tonnajlı gəmilərdə daha çox üstünlük təşkil edir. Həmçinin, Azərbaycan Respublikasında da bunkerləmə əməliyyatı ilə məşğul olan gəmilərin çoxu ümumi tutumu 1000-dən (min) az olan gəmilərdir. Qeyd olunanları nəzərə alaraq, baş vermiş çirklənmə halında dəniz ətraf mühitinə dəymiş zərərin ödənməsi riskləri meydana çıxır.

Əlavə olaraq qeyd etmək istərdik ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 sentyabr tarixli 296 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları"nın 10.9.21-ci yarımbəndinə əsasən, liman kapitanları bunker əməliyyatlarına cəlb olunan gəmilərdən "Bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyətlə bağlı sığorta və ya digər maliyyə təminatı haqqında Sertifikat"ı tələb etmək hüququna malikdir.

Yuxarıda qeyd olunan məsələlərlə əlaqədar olaraq, Dövlət Dəniz və Liman Agentliyi tərəfindən də dəniz mühitinin mühafizəsinə diqqətin daha da artırılması istiqamətində məqsədyönlü tədbirlər görülməkdədir. Bununla bağlı olaraq, Agentlik tərəfindən dəniz ətraf mühitinin çirkləndirilməsinin minimuma endirilməsi məqsədilə hadisə baş verəcəyi təqdirdə zərərin ödənilməsinə dair ümumi tutumundan, ölçülərindən və digər xarakterik xüsusiyyətlərindən asılı olmayaraq dənizdə və ya limanlarda bunker fəaliyyəti ilə məşğul olan bütün gəmilərin 01 noyabr 2024-cü il tarixinə kimi "Bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyətlə bağlı sığorta və ya digər maliyyə təminatı haqqında Sertifikat"la təmin olunması ilə bağlı qərar qəbul edilmişdir.

Fəaliyyətiniz zamanı nəzərə alınması və müvafiq tədbirlərin görülməsi tələb olunur.

**İdarə Heyəti sədrinin müavini,**
**İdarə Heyətinin sədri vəzifəsini**
**müvəqqəti icra edən** **Əfqan Cəlilov**